**DOI:** https://doi.org/10.59849/2957-3882.2023.1.162
**UOT 327; 94, 19**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ MÜXTƏLİF MƏKTƏBLƏRİN MƏDƏNİYYƏTLƏ BAĞLI İRƏLİ SÜRDÜYÜ NƏZƏRİYYƏLƏR

**Əkbər HÜSEYNİ***

***Açar sözlər:*** *Beynəlxalq münasibətlər, mədəniyyət, nəzəriyyə, məktəb*

## XÜLASƏ

Mədəniyyət bəşər övladı üçün çox mühüm olsa da, təhlil vasitəsi kimi ondan istifadə çox çətin məsələdir. Mədəniyyət daha çox qeyri-məlum və müəmmalı üsullarda istifadə edilən bir neçə şaxəli anlayışdır. Əsas problem mədəniyyətin nə olması və onun nüfuz dairəsinin məhdudlaşdırılması ilə bağlı qərar qəbul edilməsindədir. Mədəniyyəti əhatəli və tam şəkildə tərif etmək mümkün deyil. Bunun səbəbi isə mədəniyyətin mürəkkəb və dinamik olması ilə izah edilir. Əməldə mədəniyyətin minlərlə aspektini görmək üçün mədəni qurumların və kimlik nümunələrinin öyrənilməsi lazımdır. Nəzər cəlb edən təsvirlər, anlayışlar, normalar, dəyərlər və üsulların öyrənilməsi siyasi və ya beynəlxalq həyatın təyin edilməsində mühüm əhəmiyyət kəsb edir. Buna görə də beynəlxalq əlaqələrdə mədəniyyət haqqında düşünmək faydalıdır. Beynəlxalq əlaqələrdə rasionallıq ənənəsinin tərəfdarları hesab edirlər ki, beynəlxalq sistemdə iqtidar siyasəti insanın bütün davranışlarına şamil olur. Amma dünyaya nəzər saldığımızda mədəniyyətin əhəmiyyətini görməzdən gəlməyimiz çox çətindir.

### Giriş

Mədəniyyət bəşər övladı üçün çox mühüm olsa da, təhlil vasitəsi kimi ondan istifadə çox çətin məsələdir. Mədəniyyət daha çox qeyri-məlum və müəmmalı üsullarda istifadə edilən bir neçə şaxəli anlayışdır. Əsas problem mədəniyyətin nə olması və onun nüfuz dairəsinin məhdudlaşdırılması ilə bağlı qərar qəbul edilməsindədir. Mədəniyyəti əhatəli və tam şəkildə tərif etmək mümkün deyil. Bunun səbəbi isə mədəniyyətin mürəkkəb və dinamik olması ilə izah edilir. Əməldə mədəniyyətin minlərlə aspektini görmək üçün mədəni qurumların və kimlik nümunələrinin öyrənilməsi lazımdır. Nəzər cəlb edən təsvirlər, anlayışlar, normalar, dəyərlər və üsulların öyrənilməsi siyasi və ya beynəlxalq həyatın təyin edilməsində mühüm əhəmiyyət kəsb edir. Buna görə də beynəlxalq əlaqələrdə mədəniyyət haqqında düşünmək faydalıdır. Beynəlxalq əlaqələrdə rasionallıq ənənəsinin tərəfdarları hesab edirlər ki, beynəlxalq sistemdə iqtidar siyasəti insanın bütün davranışlarına şamil olur. Amma dünyaya nəzər saldığımızda mədəniyyətin əhəmiyyətini görməzdən gəlməyimiz çox çətindir. Mədəniyyət bizə insan cəmiyyətlərinin nə üçün bu cür davrandıqlarını başa düşməkdə, davranışlar arasında hansı oxşarlıqların olduğunu və dünyanın nə üçün fərqli cəmiyyətlərə bölünməsini dərk etməkdə kömək edir. Asılılıqlar və fərqliliklərin izlərinin müəyyən edilməsi tədqiqat fəaliyyətlərinin əsasını təşkil edir. Onu yalnız mədəniyyət sahəsinin analitiki beynəlxalq səviyyədə həyat keçirə bilər (1, s.1026).

* *AMEA akad. Z.M.Büynadov adına Şərqşünaslıq İnstitutu, dissertant*
*E-mail: akkbarhosseyni@yahoo.com*

1990-cı onillikdə yeni konsepsiyaların, eyni zamanda, mədəniyyətin klassik sosial və humanitar elmlər sahəsinə qarşı etiraz üsullarının meydana çıxması təsiredici parametrlərdən biri kimi, beynəlxalq sistemdə dəyişikliklər baş verməsində mühüm rol ifa etdi. İnsan hüquqları, qloballaşma demokratiyası kimi anlayışlar müasir dövrün texnologiya kommunikasiyası və qabaqcıl agentliklərinin dəstəyi ilə cahanşümul anlayışlar formasına gəlmişlər. Belə ki, hər hansı bir ölkə bu anlayışları görməzdən gələrsə, qlobal reaksiya ilə qarşılaşmış olar. Bu fəsildə mövzu ilə bağlı olan anlayışları araşdırmaqla yanaşı, onların beynəlxalq dəyişikliklərdəki rolunu müəyyənləşdirəcəyik.

**Mədəniyyət və beynəlxalq münasibətlər sahəsi ilə bağlı araşdırmalar**

Mədəniyyət və beynəlxalq münasibətlər sahəsi ilə bağlı araşdırmalar ilk dəfə 1960-cı onillikdə siyasi elmlər sahəsinin nümayəndələri tərəfindən siyasi mədəniyyət adı altında həyata keçirilməyə başlamışdır. Onlar mədəniyyətin siyasətdən, siyasətin isə mədəniyyətdən təsirləndiyini bildirirdilər. Bu cür araşdırmalar sonrakı mərhələlərdə mədəniyyətlə xarici siyasət arasındakı əlaqənin təhlilinə və analizinə keçmişdir. Sözügedən araşdırmalarda daha çox adət və ənənələrin, əxlaqi davranışların, dəyərlərin və mədəni inancların xarici siyasətdəki inikasına diqqət yetirilirdi (2, s.300).

Buna görə də dövlətlərin hər birinin müxtəlif cəmiyyətlərin mədəni xüsusiyyətlərindən aldığı nəticələr həmin mədəniyyət daşıyıcılarının baxış aspektindən fərqli ola bilər. Hər bir dövrə aid beynəlxalq mədəni xüsusiyyətləri xüsusi şəkildə səciyyələndirmək olar. Burada beynəlxalq mədəniyyət deyildikdə tarix boyu beynəlxalq cəmiyyət tərəfindən qəbul edilmiş və xüsusi funksionallıq daşıyan kütlə və xalq dəyərləri, normaları nəzərdə tutulur. Bu mədəniyyətin təcəllasını beynəlxalq rejimlərin fəaliyyət çərçivəsində, beynəlxalq normalar, qaydalar, qanunlar və konvensiyalar çərçivəsində müşahidə etmək olar (2, s.296).

Beynəlxalq münasibətlərlə bağlı iki baxış bucağı mövcuddur. Bunlar materialist və idealist baxış bucaqlarıdır. Birinci baxış bucağına görə struktur və fəaliyyətindən asılı olmayaraq sosial varlıqlar həm varlıq, həm də fəaliyyət baxımından insanlardan asılı olmadan müstəqil şəkildə mövcuddurlar. Tədqiqatlar zamanı araşdırmaların başlıca reallığını müşahidə edilə bilən maddi reallıqlar təşkil edir. İkinci baxış bucağına görə strukturlar, qurumlar və subyektlərin mövcudluğu subyektiv səciyyə daşıyır. Onlar yalnız insan şüurundan asılı olaraq mövcuddurlar. Buna görə də bizim yaşadığımız dünyada yalnız mədəni ideyalar (dəyərlər, əşyalar, normalar, ənənələr və s.) mühüm əhəmiyyət daşıyır və yalnız onları araşdırmaq olar. İnterstitial baxış bucağına görə sosial varlıqların maddi tərəfi olsa da, mühakimə tərəfləri də vardır. Üçüncü baxış bucağına görə sosial varlıqların araşdırılması zamanı maddi strukturlara diqqət yetirməklə yanaşı, mənəvi strukturlara da diqqət ayırmaq lazımdır. Əsas cərəyanda beynəlxalq əlaqələr nəzəriyyəsində (realizm, neorealizm, liberak, neoliberal və beynəlxalq əlaqələrdə rasional adı altında yer alan nəzəriyyələr) mövcudatın etik cəhətdən ədalətsiz tərtibata malik olduğu hesab edilsə də, cəmiyyətlə bağlı ən fundamental faktorları maddi qüvvələrin tənzimləyicisi və təbiəti hesab edilən dəyər və elimin ayrılığına əsaslanan pozitivizm qəbul edildiyi üçün mədəniyyət mövzusunun araşdırılması beynəlxalq əlaqələr nəzəriyyəsinin vəzifələrindən hesab edilmir. Beynəlxalq əlaqələrin bu qeyri-əsas sahələri mədəniyyət və ümumilikdə qeyri-maddi amilləri araşdırır. Buna görə də əsas cərəyanda beynəlxalq əlaqələrlə bağlı nəzəriyyələrdə mədəniyyət elə də təzahür etmir. Lakin biz hesab edirik ki, realizm və idealizm paradiqmalarının hər birinin beynəlxalq əlaqələrə baxış aspekti beynəlxalq əlaqələrdə bir növ mədəniyyətin yaranması ilə nəticələnir.

Beynəlxalq sistemin beynəlxalq əlaqələrinin əsas cərəyanı beynəlxalq əlaqələrin əsas təhlil amili hesab edilir və anarxiya vəziyyətində olur. Bu da kənar gücə malik iqtidarın və beynəlxalq sistemə hakim gücün olmaması kimi izah edilir. Beynəlxalq sistemdə mövcud olan normalar onu bir-birinə qovuşdurur. Bu vəziyyət siyasi sistemin üzvlərinin qərar qəbul edərkən müstəqil, imtiyaz sahibi olduqları və qeyri-sıfır hasili əsasında düşünənə qədər davam edir. Beynəlxalq münasibətlər sahəsinin əksər tədqiqatçıları hesab edirlər ki, anarxiya mühit, şərait, vəziyyət və hakim vəziyyətin yaratdığı

çətinliklərin təsirindən meydana çıxır. Buna görə də beynəlxalq anarxiya ilə bağlı aparılan araşdırmalarda beynəlxalq sistemə hakim siyasi mədəniyyətin öyrənilməsi anarxiya sisteminin əsas hissəsi kimi zəruri hesab edilir. Ümumiyyətlə, beynəlxalq münasibətlər nəzəriyyəsi mədəni əməliyyatlar üçün sahə formasında təqdim edilə bilər. Nəzəriyyəçilər xüsusi bir strategiya çərçivəsində beynəlxalq siyasət kateqoriyaları ilə bağlı mif yaradılmasına çalışırlar. Məsələn, realizm nəzəriyyəsi çərçivəsində beynəlxalq davranış formasını anarxiya əsasında izah edirik. Münaqişə üçün mif yaradılması təhlükəsizlik müəmmasının həyatda qarışıqlığından qorxu ilə nəticələnir. Bununla da anarxiya mühitinə qərarlaşmış aktyorun davranışını izah etmək olar. Bu da təhlükəsizlik hiss edilməməsi, başqasına etimad göstərilməməsi, öz maraqlarını düşünmək və beynəlxalq əlaqələrdə əməkdaşlığın azalmasına əsaslanan xüsusi bir davranış mədəniyyətinin yaranması ilə nəticələnir.

Liberalların baxış bucağına görə beynəlxalq cəmiyyətin təşkili anarxiyanın aradan qaldırılması, beynəlxalq siyasətin münaqişə vəziyyətindən çıxarılıb əməkdaşlıq vəziyyətinə gətirilməsi beynəlxalq əlaqələrdə əməkdaşlığa əsaslanan davranış mədəniyyətinin başqa bir formasını əmələ gətirir. Buna görə də beynəlxalq əlaqələr sahəsinin əsas cərəyanı çərçivəsində dövlətlərarası, ideoloji, dəyər, normalar məsələlərinə, ümumilikdə mədəniyyətə elə də diqqət ayrılmasa da, sistematik təzyiqlər və beynəlxalq sistemlər əməli olaraq dövlətləri davranışları assimilyasiya etmək baxımından sosiallaşma prosesini qəbul etməyə vadar edir. Belə ki, mədəni, siyasi, ideoloji aspektlərdən sistemlərin əlaqələndirilməsinə baxmayaraq, onlar oxşar əməl göstərirlər. Başqa sözlə, beynəlxalq sistem bir növ mədəniləşdirməyə meyl göstərmiş və bütün aktyorlara xüsusi bir norma vermişdir. Bu sosiallaşma prosesində qorxu, münaqişə, qarışıqlıq beynəlxalq siyasətin əsas xüsusiyyətləri kimi yerində qalır (2, s.300).

Beynəlxalq sistem mühitində aktyorların əlaqələrinin öyrənilməsi üçün bu normativ mühitin dərk edilməsi zəruridir. Neorealist nəzəriyyəçilər də öz araşdırmalarında etiraf edirlər ki, beynəlxalq münasibətlərin normativ mühiti sistemin hissələrinə müsbət və mənfi təsir göstərir. Dövlətlərin xarici davranışları beynəlxalq sistemə hakim normativ mühitə güclü şəkildə təsir göstərir. Qeyri-əsas beynəlxalq cərəyan əsas cərəyan müqabilində beynəlxalq münasibətlər sahəsi ilə bağlı geniş baxış bucaqlarına şamildir. Tənqid, postmodernizm, poststrukturalizm, marksizm, neomarksizm, İngiltərənin sturkturalizm məktəbinə şamil olan nəzəriyyələr qeyri-əsas və alternativ nəzəriyyələrdir. Bu cərəyan əsas cərəyanla müqayisədə mədəniyyət mövzusu ilə daha çox tənasüb təşkil edir.

**Marksizm və mədəniyyətin beynəlxalq əlaqələrdəki rolu**

Marks və Engels mədəni fenomenlərə xüsusi olaraq çox az diqqət ayırmış, yalnız ümumi şəkildə işarə etmişlər. Onlar hesab edirlər ki, cəmiyyətin iqtisadi təməli istehsal qüvvələri və onların münasibətlərindən təşkil olunur. Burada mədəniyyət və ideologiya sosial qrupların xoşbəxtliyinin təmin edilməsinə yardım məqsədilə önə çəkilmişdir. Təsir göstərən forma, bazis-üstqurum iqtisadiyyatı cəmiyyətin təməli kimi nəzərdə tutulur, mədəni, hüquqi və siyasi formaları iqtisadi təməldən qaynaqlanan və onun təkrar istehsalına xidmət göstərən üstqurum təsəvvür edilir. Ümumiyyətlə, Marksın strateji aspektindən mədəni formalar həmişə tarixin müəyyən mövqelərində meydana çıxır, xüsusi sosial və iqtisadi maraqlara xidmət göstərir, mühüm sosial vəzifələr icra edirlər. Marks və Engelsə görə hər bir əsrin mədəni düşüncələri hakim təbəqənin maraqlarına xidmət edir, müəyyən bir təbəqənin hakimiyyətini təmin etmək üçün ideologiyaları qanuniləşdirir (3, s.141-142).

Marksistlərin çoxu Marks və Engelsin ideyalarını inkişaf etdirərək klassik marksizmi müstəqilləşdirmiş, mədəniyyətə böyük əhəmiyyət vermişlər. Per Anderson, Corc Lukas, Benyamin Adorno kimi alimlər mədəni təhlilin marksist üsulunun əsasını qoymuşlar (3, s.43).

Bu üsulda kapitalist sistem əlaqəsinin və sosial zehniyyətin müəyyən edilməsi vasitəsilə insanların məlumatlandırılmasına əsasən, hesab edilir ki, mədəniyyət istehsalı vasitələrinə malik olan şəxslər eyni mədəniyyət istehsal etmək və nəzərdə tutulan təkrar ideoloji istehsal gücünə də malikdirlər. İstehsalın sahəsi mədəniyyətdir. Kapitalizm sistemi onun vasitəsilə cəmiyyətin idrakını təşkil

edir. Marksizmin modern mədəniyyətlə bağlı görüşü ideologiya çərçivəsində formalaşır. Çünki mədəniyyət ideologiyanın məhsuludur. Hər bir əsrin hakim ideologiyası hakim təbəqənin ideyasıdır. Mədəni, təhsil, hüquqi və siyasi institutlar üstqurum kimi dini inanclar, etik görüşlər, fəlsəfi və mədəni baxışlar kimi sosial bilgilərin xüsusi formalarını yaradır. Bazislə üstqurum arasındakı əlaqə dialektik və ikitərəflidir. Üstqurum həm bazisin inikası və həm də ona diqqət yetirən və onu davam etdirəndir. Bazis üstqurumun məzmun və formasını təyin edir.

Marksizmin beynəlxalq münasibətlərlə bağlı baxış bucağına görə mədəniyyət üstqurumun formalarından biri kimi, tarixi şəraitdən asılı olaraq qlobal kapitalizm sisteminin maraqlarına xidmət göstərir. Qlobal kapitalizm sistemi xüsusi bir mədəniyyət istehsal etməklə beynəlxalq cəmiyyətin şüurunu formalaşdırır. Qeyd etməliyik ki, qlobal kapitalizm sistemi kütləvi informasiya vasitələri ilə mədəniyyətin transformasiyasına və öz sərvətini qanuniləşdirməyə xidmət edir.

Neormarksistlər və başçıları Volter Stayn hesab edir ki, modern qlobal sistem xüsusi bir mədəniyyəti də formalaşdırır. Tarix boyu bu sistem yeni inancların inkişafına əsasən siyasi dəyişikliyi qanuniləşdirir, onun qəbulunu adiləşdirir, hakimiyyəti qanuniləşdirir. Sistem üç çərçivədə zühur edir:

1. İdeologiyaların kəşfi;
2. Saentologiyanın qələbəsi;
3. Qlobal sistem qarşısında formalaşan sosial hərəkatların qarşısının alınması.

Qlobal sistemə zidd hərəkatlar saentologiya ilə irqçilik və cinsi ayrı-seçkilik kimi xüsusiçiliyin arasında formalaşan təzaddır. Bu qlobal mədəniyyət qlobal sistemin fəaliyyət göstərdiyi mədəni çərçivədir. Əlbəttə, bu mədəniyyət əsasən diqqətdən kənarda qalır, amma sistemin qalan hissəsi onsuz fəaliyyət göstərir (4, s.201).

**Tənqidi məktəb**

Frankfort məktəbi Marksizm məktəbinin varisi olsa da, digər tərəfdən marksizm məktəbini islah və tənqid edir. Bu məktəbin nümayəndələrinin cavab axtarmağa çalışdığı sual ondan ibarətdir ki, kapitalizm sistemi mədəniyyət kateqoriyası vasitəsilə özünü necə təkrar istehsal edir? Bu nəzəriyyənin nümayəndələri hesab edirlər ki, modern kapitalizm təzadların çoxunun, qarşılaşdığı böhranların aradan qaldırılmasına və yeni davamlılıq qazanmağa çalışır. Bu prosesi asanlaşdıran məsələlərdən biri mədəniyyət sənayesidir. Bu sahə yalançı ehtiyacları razı salmağa və real ehtiyacları məhv etməyə xidmət edir. Bu səbəbdən də modern kapitalizm sistemində real ehtiyaclar reallaşmır. Çünki bu sistemin öz davamlılığı üçün gücləndirdiyi yalançı ehtiyaclar onlara yüklənir.

Tənqidi məktəbin orientasiyası mədəniyyət səviyyəsindən və yeni kapitalist cəmiyyətin reallıqlarından asılıdır. Belə ki, müasir dünyada üstünlük mərkəzi iqtisadiyyatdan mədəniyyətə keçmişdir. Tənqidi məktəb müasir cəmiyyətdə mədəniyyətin əzilməsinə təkid edir. Onlar hesab edirlər ki, müasir dünyada bu üstünlük iqtisadi ünsürlərlə deyil, daha çox mədəni ünsürlər vasitəsilə baş verir. Müasir cəmiyyətdə texnokratik təfəkkür fərdin yerini tutmuşdur. Texnokratik təfəkkürün məqsədi insanları tabeçilikdən xilas etmək deyil, üstün qüvvələrə xidmət göstərməkdir. Bu təfəkkürün məqsədlərindən biri son məqsədə çatmaq üçün güc sahiblərinin mühüm hesab etdikləri ən təsirli vasitəyə nail olmaqdır. Beynəlxalq münasibətlərdə normativ etikasına qayıdış tənqidi nəzəriyyənin əsas xüsusiyyətlərindən hesab edilir. Qlobal bərabərsizliklərin azaldılması, beynəlxalq ədalətin bərqərar edilməsi, müxtəlifliyə hörmət göstərilməsi, plüralizm və fərqlilik beynəlxalq dəyişiklik imkanlarında tənqidi nəzəriyyəçilərin diqqət yetirdikləri nöqtələrdəndir. Bundan əlavə, fərdlərin mədəni mövqeyinin, eləcə də onların məqsəd və maraqlarının əvəzinə sosial aspektlərə diqqət yetirilməlidir, qüdrətlə əxlaq arasındakı əlaqə diqqət mərkəzində olmalıdır. Bu məsələ tənqidçi məktəbin nümayəndələri üçün mühüm əhəmiyyət kəsb edir. Mədəni və dəyər aspektindən plüral olan bir dünyada mövcud vəziyyətin dəyişməsinə necə ümid bəsləmək olar, ondan sonra yeni sistemin əvəzlənməsi istiqamətində ümumi və hər kəsin qəbul edə biləcəyi əxlaq prinsiplərinə necə nail olmaq olar? (4, s.201)

Tənqidçi məktəb nümayəndələrinin baxış bucaqlarına görə fərqli səviyyələrdə, xüsusilə mədəniyyətlər arasında danışıqlar aparılması qlobal siyasətlə bağlı yeni düşüncə şəklinin formalaşması ilə nəticələnə bilər.

Qramşi hesab edir ki, beynəlxalq əlaqələrin dəyişməsi də mədəni səciyyə kəsb edir. Qramşi xalq tərəfindən sosial reallığın əhatəli dəyişikliyini qarşılıqlı mədəniyyət hesab edir. Yəni dünyagörüşü sosial və ortaq üsullarının obyektiv reallaşdığı siyasi sistemlərin yeni formasını əvəz edir.

**İngiltərə və strukturalizm məktəbi**

İngiltərə məktəbi və strukturalizm nəzəriyyəsi beynəlxalq münasibətlərlə bağlı irəli sürülən nəzəriyyələr arasında liberallığı ilə şöhrət tapmışdır. Bu nəzəriyyənin nümayəndələri rasional nəzəriyyələr arasında liberal istiqamətə üstünlük verirlər və hesab edirlər ki, beynəlxalq problemlərin təhlilində həm maddi və qeyri-humanitar amillərə diqqət yetirmək lazımdır, həm də normalar və dəyərlərdən faydalanmaq lazımdır. Sabitlik və həmrəylikdə orta yolun əhəmiyyəti özünü daha çox antologiya və qneseologiya məsələlərində, fəlsəfi, saentologiya və normativlərdən geniş istifadə imkanlarında göstərir.

İngiltərə məktəbi və İngiltərə məktəbinin F.S.C.Nordrob, Adda Bozeman, Hedley Bull, Maykl Donelan kimi nümayəndələri mədəniyyəti beynəlxalq münasibətlərin çox ciddi bir aspekti kimi araşdırmışlar. Onlar mədəni fərqlilik məsələsinə diqqət yetirmiş və beynəlxalq sistemi siyasi cəmiyyətin xüsusi bir forması kimi beynəlxalq cəmiyyət adı altında araşdırmışlar.

Bu alimlərə görə beynəlxalq cəmiyyət belə izah edilir: “Dövlətlərdən ibarət bir qrup yalnız bir sistemi təşkil etmir, davranış və münasibətlər üçün danışıqlar və razılaşma yolu ilə ortaq qaydalar və institutlar yaradır, öz maraqlarını bu tərtibatın qorunması ilə müəyyən edir” (4, s.30). Beynəlxalq sistem müəyyən bir ərazinin sərhədləri çərçivəsində ortaq kimliyə əsaslanan milli sistemdən daha yüksəkdə dayansa da, əməldə hər kəsin qəbul etdiyi və beynəlxalq sistem mühitində fəaliyyət göstərən yazılmamış normalar, qanunlar, qaydalar, hüquqi rejimlər, diplomatik və ticari mədəniyyətlərə malikdir. Beynəlxalq əlaqələr, insan hüquqları və onun xarici siyasətə təsirinin mahiyyəti ilə bağlı aparılmış təhlilinin araşdırılması göstərir ki, mədəniyyət malik olduğu müxtəlif məzmunları ilə bu təhlillərdə daimi olaraq mövcuddur.

İngiltərə məktəbi üçün beynəlxalq əlaqələr mövzusunun mərkəzi nüvəsi nəzəriyyəçilərin başa düşməyə və dərk etməyə çalışdıqları subyektlərin niyyəti və idrak təməlinin dərk edilməsindədir. İngiltərə məktəbinin nümayəndələri hesab edirlər ki, dövlətlər dövlətlərin qəbul etdikləri dəyərlərə, qaydalara və institutlara şamil olan dövlətlərdən təşkil olunmuş bir cəmiyyətdə qərarlaşmışlar. Beynəlxalq sferada sistemə güc verən razılaşma ilə bağlı normalar, verilən vədə əməl etmək və əhdə vəfa prinsipləridir (5, s.32-33).

İngiltərə məktəbi kəmiyyətçi araşdırmalara və ABŞ-ın beynəlxalq münasibətlərlə bağlı yanaşmasına pozitiv baxmır. Bəlkə də deyə bilərik ki, İngiltərə məktəbinin davamçılarının antologiyasının beynəlxalq münasibətlərə keçid nöqtəsi, yəni beynəlxalq cəmiyyət mədəni qaydalar, normalar və ünsürlərə əsaslanmaqla yanaşı qneseologiyanı və saentologiya metodologiyasının izlənməsinə mane olur. Nəzəriyyədən, izahdan, tarixi baxışdan, ideoqrafiyadan, yəni fərdi aspektdən kənar müşahidənin inkarı, ictimaiyyətin vahid fenomenləri, normativ aspektlərə diqqət səciyyələndirmə və təhlil aspektləri ilə yanaşı bu məktəbin öyrənilməsi hesab etmək olar.

İngiltərə məktəbi beynəlxalq münasibətlərin qeyri-maddi və ideoloji aspektlərinə əsaslanaraq beynəlxalq əlaqələrdə mədəniyyətin, normaların, qaydaların rolunu, detalların müşahidəsindən qorunmanı əsas götürür, beynəlxalq siyasi həyatın normativ aspektlərinə, ardınca əlaqələrin dəyişdirilməsi və daha da ədalətli şəklə salınması üçün mövcud olan imkanlara diqqət yetirir, trans-nəzəri mövzularda liberal mövzunu formalaşdırır. Digər liberal baxışlarla yanaşı beynəlxalq münasibətlər sahəsində nəzəri və tədqiqi araşdırmalar üçün münasib yataq yaratmaq olar (5, s.171-172).

Ümumilikdə bu məktəbin spesifik xüsusiyyətlərini belə sıralamaq olar:

a) Tədqiqatların istiqamətləndirilməsi və ondan qaynaqlanan nəzəriyyənin liberal yolun formalaşmasına təsirləri;

b) b) Qüdrət və müqavimətin rol oynadığı atmosfer kimi mədəniyyətin müəyyən edilməsi istiqamətində ilkin əlaqə və mədəniyyətin iqtidarına daha çox üstünlük verilməsi;

c) c) Məna bağlılığı ilə əlaqədar daha aydın izah verilməsi və beynəlxalq sistemdə güc;

Obyektivizm və subyektivizm amillər arasında ortaq əlaqələr yaratma imkanına malik konstruktivist nəzəriyyə son dövrlərin beynəlxalq münasibətlər sahəsi ilə bağlı mühüm nəzəriyyələrindən biri kimi struktur dilçiliyin, postmodern, tənqidi, ədəbi tənqid, mədəni, media araşdırmaları nəzəriyyələrinin məhsuludur.

Bu nəzəriyyə dövlət kimliyinin xarici siyasətdəki roluna xüsusi əhəmiyyət verir. Sözügedən nəzəriyyəyə əsasən beynəlxalq həyatda insan davranışlarının qarşılıqlı əlaqələri və ayıq aspektlərinin roluna əsaslanır. Yəni insan dünya və onun əhəmiyyəti ilə bağlı tənzimlənmiş baxışa malik olmağa meyllidir. Bu imkan elə sosial reallıqlar yaradır ki, varlıqları insan razılıqlarının əsasını təşkil edir, davamlılıqları sosial institutların təşkilindən asılı olur (pul, mülkiyyət hüququ, hakimiyyət, nikah və bayramlar). Konstruktivistlər hesab edirlər ki, aktyorlar sosial struktura əsaslanan kimliklərə və maraqlara malikdirlər. Onlar mənbəyi digər insanlar olan subyektiv amillərlə şərikdirlər.

Bu nəzəriyyə son illər çox geniş vüsət almış, beynəlxalq davranışların dəyişməsi və sabitliyində marksist nəzəriyyələrin alternativi kimi diqqət cəlb etmişdir. Realizm və liberalizm ideyalara və kimliklərə əsaslanan strukturalizmdən fərqli olaraq qüdrət və sərvət kimi maddi amillərə əsaslanır. Dövlət və onun bəqası üçün göstərilən səylərin fərz edilməsinin əvəzində dövlətlərin kimlikləri müəyyən tarixi proseslərə uzlaşan məhsul kimi nəzərdə tutulur. Bu, kimlikləri sabit və daimi hesab edən idealizmin ənənəvi nəzəriyyələrin müqabilində qərarlaşır. Konstruktivistlər cəmiyyətdəki normalara diqqət yetirirlər. Çünki normalar inancları və maraqları əks etdirir, onları formalaşdırır, arzuolunan davranış normalarını yaradırlar. Buna görə də sözügedən baxış bucağı inanclar və kimliklər sahəsində beynəlxalq əlaqələrin dəyişməsinin mənbəyidir. Bu nəzəriyyənin prioritetlərindən biri mədəniyyət və daxili siyasətlərin beynəlxalq nəzəriyyə sahəsinə qaytarılmasıdır.

Bu nəzəriyyə sosial reallığın maddi reallıqlardan fərqləndiyini hesab edir, sosial həyatın məzmununa diqqət yetirir, bu reallığın öyrənilməsini mümkün, təbii və fiziki sahələrin öyrənilməsindən az-çox fərqlənən hesab edir, sosial əlaqələrin izahını əsas götürür, dövlət kimliyinin qeyri-maddi təməllərinə, xüsusilə onun mədəni prinsipinə önəm verir və beynəlxalq cəmiyyəti qaydaların hakimiyyəti altında görür.

Konstruktiv təhlilə əsasən, istənilən nov dövlət kimliyi dünya siyasətində daxildə kimliyin təşkilinə səbəb olan sosial faktorların məhsulu qədərdir. Belə ki, daxildəki kimlik siyasəti dövlətin xaricdəki kimliyi, maraqları və davranışları üçün imkan və məhdudiyyətlər yaradır. Belə olan vəziyyətdə hətta imperialist siyasətlərin təqibi üçün maddi güc olduğu şəraitdə onun təkrar istehsalı sosial faktor olmadan və ideologiyadan kənarda dərk edilə bilməz. Dövlətin öz daxilində dövlət siyasətinə təqvim, genetik və ya səbəb-nəticə təsiri göstərən mədəni faktorla ola bilər. Burada belə təsəvvür olunur ki, dövlət milli kimlik forması ilə istixrac qüdrətini qanuniləşdirməyə ehtiyac duyur. Məhz bu kimlik üzərində xaricdə güc nümayiş etdirir (2, s.299).

Konstruktivizmin xüsusiyyətlərindən biri maddi ünsürlərlə yanaşı mədəni və normativ strukturlara önəm verilməsidir. Belə ki, bu vəziyyətdə qüdrətin maddi ünsürlərinə, silahlara, əraziyə, cəmiyyətə məna bəxş edən fikir və ideyalardır. Normalar maraqların təşəkkülündə əsaslı rol ifa edirlər. Burada daxili, regional və beynəlxalq normalar arasında münaqişənin nə həddə olduğunu nəzərə almaq lazımdır. Mədəniyyətlə bağlı əldə edilmiş fərqli nəticələr və davranış formaları ilə bağlı aparılmış təhlillər daxili normalar əsasında naməlum davranış formalarını öz məlumatlarımız əsasında qiymətləndirməyimizə səbəb olur. Nəticədə tanıdığımız dünya içində tanımadığımız dünyanı inşa edirik.

Ümumilikdə konstruktivizmin üç antropoloji fərziyyəsi bunlardır: Birincisi, maddi və mənəvi strukturlar sosial və siyasi subyektlərin kimlik və davranışını bərabər şəkildə formalaşdırırlar. Ortaq inanclar sistemi, etiqadlar və dəyərlər kimi mənəvi amillər və strukturlar beynəlxalq əlaqələr sisteminə təsir göstərirlər. İkincisi, dövlətlərin davranış və maraqları onların kimliklərindən asılıdır. Buna görə də daxili cəmiyyətə hakim mədəni prinsipdən qaynaqlanan fərqli dövlət davranışlarının meydana çıxması mümkündür. Üçüncüsü, struktur və broker arasında qarşılıqlı əlaqə mövcuddur. Brokerin kimliyi və mədəniyyəti struktura təsir göstərir (6, s.8-9).

Bu təsir daxili səviyyədən regional və beynəlxalq səviyyələrə də sirayət edir.

Vent hesab edir ki, beynəlxalq əlaqələr mədəniyyəti üç formada ola bilər: Dövlətlərin davranışlarına struktur bəxş edən Hobs, Lok və Kant mədəniyyəti. Vent Lok mədəniyyətin (güc paralelliyi, təhlükəsizlik rəqabəti, məhdud müharibələr) Kant mədəniyyətinə keçidini müşahidə edir. Buna görə də bu ikisinin davranış meylləri tamamilə fərqlidir. Vent hesab edir ki, sistem səviyyəsindəki davranış meyllərini ümumi və cahanşümul teoremlər kimi izah etmək olmaz. Əgər bir qrup davranışlarını qarşılıqlı rəqabət təfəkkürünə əsaslandırarsa, sistem Lak aspekti qazanır. Əgər dövlətlərin böyük bir qrupu bir-birlərini dost hesab edərsə, sistemə hakim mədəniyyət Kant səciyyəsi almış olar. Buna görə də beynəlxalq anarxiya təbiətini mədəniyyət, kimlik və maraqları əsasında təyin edirlər (7, s.56).

**Nəticə**

Mədəniyyətin beynəlxalq münasibətlərdəki roluna əsaslanan konstruktivistlər belə bir nəticəyə gəlirlər ki, qlobal siyasi mədəniyyət nəzərə alınmadan dövlət sisteminin yüksək sabitliyini və siyasi formaların müxtəlifliyinin azalmasını izah etmək olmaz. Konstruktivistlər hesab edirlər ki, beynəlxalq əlaqələrə hakim hərc-mərclik normalar, dəyərlər və etiqadların müxtəlifliyi və çoxluğundan qaynaqlanır. Başqa sözlə desək, biz müxtəlif mədəniyyətlərə malik plüral bir dünyada yaşadığımız üçün belə bir qarışıqlığa təəccüblənməməliyik.

**ƏDƏBİYYAT**


1. میردن، سیمون، بایلیس، جان و اسمیت، استیو (1383). فرهنگ در امور جهانی؛ جهانی شدن سیاست: روابط بین الملل در عصر نوین، گروه مترجمین تهران: انتشارات موسسه ابرار معاصر.
2. قوام، عبدالعلی (تابستان 1384) فرهنگ: بخش فراموش شده یا عنصر ذاتی روابط بین الملل فصلنامه سیاست خارجی، سال نوزدهم.
3. کلنر، داگلاس (1383). مارکسیسم فرهنگی و مطالعات فرهنگی. ترجمه : وحید ولی زاده، فصلنامه اقتصاد سیاسی، شماره 10.
4. مشیرزاده، حمیرا (1383) تحول در نظریه های روابط بین الملل. تهران: سمت.
5. Chay, Jongsuk (1990) “culture and International pelations “(New York, Praeger Publisher.
6. کلارک، یان (1382). جهانی شدن و نظریه روابط بین الملل، ترجمه فرامرز تقی لو؛ تهران : دفتر مطالعات سیاسی و بین المللی.
7. توحید فام، محمد (1382). فرهنگ در عصر جهانی شدن، چالش ها و فرصت ها، در کتاب نقش فرهنگ در فرآیند جهانی شدن؛ مولف: علی اصغر کاظمی،تهران: انتشارات روزنه.

## РЕЗЮМЕ

***Акбер ХОСЕЙНИ***

***Теории различных школ сферы международных отношений, выдвигаемых в области культуры***

***Ключевые слова:*** *Международные отношения, культура, теория, школа*

Хотя культура очень важна для человечества, использовать ее в качестве средства анализа очень сложно. Культура – это многогранное понятие, оперирующее не до конца ясными и загадочным средствами. Основная проблема заключается в том, чтобы решить, что же такое культура, и как ограничить сферу ее влияния. Невозможно дать всестороннее и полное определение понятию культуры. Причина этого заключается в том, что культура сложна и динамична. Чтобы увидеть тысячи аспектов культуры на практике, необходимо изучить культурные институты и образцы идентичности. Изучение образов, концепций, норм, ценностей и методов, притягивающих внимание, является важным для определения политической или международной жизни. Поэтому полезно думать о культуре в международных отношениях. Сторонники традиции рациональности в международных отношениях считают, что политика власти в международной системе применима ко всему человеческому поведению. Однако очень трудно игнорировать значимость культуры, когда мы обращаем взгляд на мир.

## SUMMARY

***Akbar HOSSEINI***

***Theories Proposed on Culture by Various Schools in International Relations***

***Keywords:*** *international relations, culture, theory, school*

Culture is essential for humankind, however, its usage as a means of analysis is highly problematic. It is mainly a notion with several ramification directions and is used in unknown and inexplicable methods. Here, the main problem is the essence of culture and delimitation of its sphere of influence. It cannot be precisely and comprehensively defined, which is explained as originating from its complicity and dynamism. In real, cultural institutions and samples of identity should be studied thoroughly in order to see thousands of aspects of culture. The study of attractive descriptions, notions, norms, values and methods is of high importance for decisions in political and international life spheres. Therefore, thinking on culture is always useful in international relations. Followers of the tradition of rationality in international relations consider that the policy of achieving power in international relations is attributed to all human deeds. However, observing the world, we can conclude that overlooking culture is merely possible.